

**Səma MUĞANNA**

***TANRI ƏMANƏTİNİN GÖZ YAŞLARI…***

*O küçədən keçərkən intihar edən körpənin fəryadı qulaqlarımda cingildəyirdi?,göz yaşları isə saçlarımın uclarını islatmışdı.Ölən körpənin cəsədi arxadan məni səsləyirdi elə bil.İçimdən qopan bir duyğu,məni ona vadar edirdi ki,sanki özümü ona qaçacaqmış kimi hiss edim.Əlləriylə simama toxunmağa çalışırdı.Gözləri kor,dili lal idi.Bir anlıq ürpənib geri çəkildim,ancaq sonra düşündüm ki,əgər bu körpəni mən buradaca qoyub getsəm,onun ahı yaxamı buraxmayacaq.*

Körpə qollarımda idi.Soyumuş bədəninə göz yaşları süzülürdü.Ona baxdıqca,elə bilirdim mən ölürəm.Onun gözlərim önündə intihar etməsi məni dəli etmişdi.Dəli dedim,siz anlamadınız məni.Bir ağaca tutunun və dırnaqlarınızla ondan yapışın,var gücünüzlə onun canını alın.Aldıqca nə hiss edəcəyinizi təsəvvür edin! Və mən bu körpənin ölmüş cəsədini qollarımın arasında daşıdıqca o hissləri keçirirdim. Körpə qucağımda inildəyirdi elə bil.Axı o ölmüşdü,bu necə ola bilərdi? Ürək döyüntüləri yox,nəbzi atmır,ancaq yeganə yaşayan onun göz yaşlarıydı.Mən hər dəfə göz yaşı tökdükcə,körpə də göz yaşlarını sinəmə axıdırdı.Yaş olmuş paltarım onu soyuqdan qoruya bilmirdi.Onun göz yaşları saçlarıma,sinəmə axırdı,nədənsə paltoma toxunmurdu.Kiçik əlləriylə də ancaq saçlarımdan tutunmuşdu.Mən o körpənin öldüyünə

inanmırdım,ölən yalnız göz yaşlarıydı.O,göz yaşlarını göy üzünə təslim edib,ruhunu öldürən birisinə sahib olmuşdu.İntihar qorxusu yaşadan şəxs körpənin içində fəğan edirdi…

Artıq taqətim qalmamışdı.Əllərim qopub düşürdü elə bil.Körpəni qucağımda saxlaya bilmədiyim üçün özümü qınayırdım.Nəfəsim kəsilir,gözlərim qaralır,ayaqlarım çuxura addımlayırdı.Sanki ayaqlarım qırılıb düşüb,şikəst qalmışdı.Əlləriminsə,bu məsum məzlumu tutmağa gücü yetmirdi.

İçimdən ani qopan qışqırıqla körpə dərindən nəfəsini içinə çəkdi.Döyünən ürəyini qulaqlarımda eşitdim.Gözlərini açıb,məni diqqətlə izlədi və yavaş-yavaş gözlərindən kiçik damlalar axmağa başladı.O damlaları əllərimlə silmək istəyərkən,əlimi tutub kiçik ürəyinin üstünə qoydu.Yenə nəfəsini dərindən içinə çəkib,gözlərini qapatdı.Yanaqlarına süzülən kiçik damlalarla sinəmə sıxılıb,balaca barmaqlarıyla məni bərk-bərk qucaqladı.Mənə yolu düz getməyimi-dedi.Əliylə işarə edərək yola davam etdim.

Yolun sonuna gəlmişdik.Ətraf zülmətin qaranlığıyla dolu idi.Yerə sərilmiş kuklalar bizə tamaşa edirdi.Əllərində tutduqları bıçaqları atıb,elə bil təslim olurdular.Gözlərimizin önündə anidən ayağa qalxıb,bıçaqları yerə atdılar.Paltarlarının üzərində kiçik göz yaşları gizlənirdi.Kəsilmiş saçları,ayaqlarıyla bizə işarə etdilər.Yolun sonunun hara gedəcəyini bilmirdim,ancaq körpə nəfəs alıb verir və bərk-bərk saçlarımdan yapışırdı.Artıq göz yaşları dayanmışdı..

Uçurum kənarına çatdıq.Birdən çiyinlərimdə bir palto olduğunu hiss etdim.Palto həddindən artıq ağır idi.Sanki illərin yükü çiyinlərimdəydi.Paltonu çıxarıb,körpəni bürümək istədikdə əliylə saxla-deyə işarə etdi.Palto çiyinlərində qalsın-deyirmiş kimi gözlərini qapatdı.Paltonu çiyinlərimdə hiss edərkən,sanki illər öncə onun mənim çiyinlərimi örtdüyü paltonu xatırladım.Soyuqdan donan vücudumu yalnız onun paltosu isidə bilmişdi.Sanki bu gün o gün idi.Qucağımdakı körpə göz yaşlarıyla məni buraya gətirdi və qarşıma zülmətin kabusunda yenicə doğulmuş acılı,yaralı,hətta ləkələnmiş kuklalar çıxdı,ancaq o palto çiyinlərimə qonduğu anda körpəninki kimi mənim də göz yaşlarım simamda quruyub yox oldu.Bəli,biz o gün göz yaşlarımızı göy üzünə təslim etdik.Bu paltosa,bir gün onun gəlib,əlimdən tutub aparacağını işarə etdi.

Körpə qucağımdaca yuxuya dalıb,son göz yaşlarını da saçlarıma axıtdı.Döyünən ürəyi susub,göz yaşları Tanrının hüzuruna qovuşdu…